Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi təkcə beynəlxalq ictimaiyyətin ölkəmizə etimadının göstəricisi deyil, həm də iqlim dəyişmələri ilə mübarizədə əhəmiyyətli işlərin aparılması üçün əlverişli məqamdır. COP29 Azərbaycana beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirməyə kömək edəcək, eləcə də iqlim dəyişmələri ilə mübarizədə qlobal səylərə töhfə verəcək.




# İştirakçı ölkələr üçün yeni imkanlar

## İqlim dəyişmələri ilə mübarizədə mühüm və qlobal layihələr təklif ediləcək

Azərbaycanın COP29-a ev sahibliyi dünya mətbuatında əsas müzakirə mövzularındandır. Bu mötəbər tədbirə hazırlıq işləri isə sürətlə davam edir. Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə çoxsaylı qlobal forum və konfranslar keçirilib. Ölkəmiz iqlim dəyişmələri ilə mübarizə baxımından COP29-un uğurlu olmasını istəyir.

2023-cü ildə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən COP28 konfransında 195 ölkə yekdilliklə növbəti konfransın ölkəmizin paytaxtı Bakı şəhərində keçirilməsinə səs vermişlər. Bu bir daha ölkəmizə olan böyük bir etimadın göstəricidir.

Ötən ilin dekabr ayında COP29-la əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilmişdir. Bu müşavirədə tədbirin mahiyyəti, onun ölkəmizin qlobal aləmdə nüfuzu nöqteyi-nəzərindən əhəmiyyəti ölkə başçısı tərəfindən ətraflı şərh edilmişdir. Cari ilin yanvar ayında cənab Prezident tərəfindən COP29-un keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalanmışdır. Təşkilat Komitəsi hazırda qlobal tədbirin reallaşması ilə bağlı müvafiq texniki-təşkilati tədbirləri uğurla həyata keçirir. Tədbir müddətində Bakı təxminən 70-80 min xarici qonaq qarşılayacaq. Bu baxımdan, COP29 Azərbaycan üçün həm də böyük siyasi əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev vurğulayıb ki, COP29-a ev sahibliyi edəcək ölkə kimi Azərbaycan fəal hazırlıq prosesindədir və irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, böyük məsuliyyətdir. "Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq", - deyən dövlət başçısı bildirir ki, bu gün beynəlxalq aləmdə Azərbaycana hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Azərbaycanın COP29-a sədrliyi həm ölkəmiz, həm də dünya üçün mühüm bir hadisədir. Bu, iqlim dəyişmələri ilə mübarizə sahəsində qlobal səyləri birləşdirəcək və daha ədalətli, dayanıqlı bir gələcək qurmağa töhfə verəcək.

Hazırda Azərbaycan rəqabətədavamlı iqtisadiyyatı, sosial ədaləti və innovasiyaları əhatə edən, milli maraqlara uyğun yeni strategiya formalaşdırmışdır. Bu prioritetlər arasında təmiz ətraf mühitə nail olunması və "yaşıl inkişaf"ın təşviq edilməsi diqqət mərkəzindədir. Milli ekoloji siyasətin ən yaxşı beynəlxalq təcrübələrlə uzlaşdırılması mühüm əhəmiyyət kəsb edir. COP29 tədbirinin mövzusu ekoloji məsələlər olsa da, o, imkanlarının geniş olması və aktuallığı baxımından həm də siyasi və iqtisadi təsirlər yaradır. Bu öhdəlik Azərbaycanın dövlət strategiyasına tam uyğundur.

Ekspertlərin fikrincə, COP29 tədbiri ətraf mühitə mənfi təsirin azaldılması üçün təcrübənin mənimsənilməsində ölkəmizə kömək edə bilər. Eyni zamanda iqlim dəyişmələri ilə bağlı əldə edilən qabaqcıl təcrübələrin Azərbaycana inteqrasiyasını asanlaşdırmaq mümkün olacaq.

Prezident İlham Əliyev Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə "Biz Bakıda keçiriləcək COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərimizi əsirgəməyəcəyik və inkişaf etməkdə olan ölkələrin legitim maraqlarını nəzərə alacaq razılaşmanın əldə edilməsinə çalışacağıq" söyləyərək qeyd etmişdir ki, Azərbaycanın prioritetləri sırasında həm də iqlim dəyişmələrinin mənfi təsiri səbəbindən ekzistensial təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək yer alır və bu dövlətlər üçün xüsusi texniki yardım fondunun yaradılması təşəbbüsü ilə çıxış edib.

COP29-a dəvət edilən dünya liderləri Azərbaycanın dinamik inkişafına əyani surətdə şahid olacaqlar. Ərazi bütövlüyü və suverenliyini tam bərpa etmiş Azərbaycan yaratdığı yeni reallıqları dünyaya təqdim edəcək. Və bütün bunlar sözsüz ki, beynəlxalq müstəvidə ölkəmizə əhəmiyyətli dividendlər qazandıracaq.

Azərbaycan iştirakçılar və qonaqlar üçün rahat şərait yaratmağa, eləcə də davamlı inkişaf və iqlim siyasəti sahəsində nailiyyətlərini nümayiş etdirməyə səy göstərərək yüksək məsuliyyət və peşəkarlıqla bu cür böyük tədbirlərə ev sahibliyi edir. Ölkə müasir infrastruktur, insan resursları, beynəlxalq tədbirlərin keçirilməsində yaxşı təcrübəyə malikdir.

Azərbaycan ekoloji problemləri diqqət mərkəzində saxlayır, yeniliklər etməyə daim hazırdır və inkişaf göz qabağındadır. Bütün bunlar COP29-un keçirilməsi üçün ölkəmizi ən uyğun məkanlardan birinə çevirir. Konfransın Azərbaycanda keçirilməsinin əsas üstünlükləri kimi, işğaldan azad edilmiş ərazilərin vəziyyətinin yaxşılaşdırılması, səmərəli və effektiv infrastrukturun qurulması üçün bilik və bacarıqların öyrənilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsini misal göstərmək olar. Eyni zamanda COP29 konfransı iştirakçı ölkələr üçün yeni öhdəliklər götürmək və iqlim böhranını həll etmək, konkret addımlar atmaq üçün bir fürsətdir.

**M.MİRZƏ,**
**"Respublika".**

Respublika .- 2024.- 24 avqust (№ 182).- S.7.